# “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

“Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, üç ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.4. həmin Qanunun 10.3-cü maddəsinin birinci cümləsində nəzərdə tutulmuş ictimai birliklərə respublika idman federasiyası statusunun verilməsi üçün onların dövlət akkreditasiyası qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin Qanunun 12.2-ci maddəsində nəzərdə tutulmuş hüquqi şəxs statusu olmayan idman klubu haqqında nümunəvi əsasnaməni təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.6. həmin Qanunun 19.8-ci maddəsində nəzərdə tutulmuş hərbi-tətbiqi və xidməti-tətbiqi idman növlərinin siyahısını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.7. həmin Qanunun 29.3-cü maddəsində nəzərdə tutulmuş milli yığma komandaların maddi-texniki, elmi-metodiki, tibbi-bioloji, tibbi və antidopinq təminatı qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.8. həmin Qanunun 34.2-ci maddəsində nəzərdə tutulmuş ölkə ərazisində yayılan idman növlərinin və idman fənlərinin tanınması qaydalarını təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.9. həmin Qanunun 35.1-ci maddəsində nəzərdə tutulmuş respublika idman federasiyalarının dövlət reyestrinin aparılması qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.10. həmin Qanunun 36.1-ci maddəsində nəzərdə tutulmuş idman növlərinin dövlət reyestrinin aparılması qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.11. həmin Qanunun 37.1-ci maddəsində nəzərdə tutulmuş Azərbaycan Respublikasında bədən tərbiyəsi və idman sahəsində idman adları, idman dərəcələri, məşqçilərin təsnifat kateqoriyaları və idman hakimlərinin təsnifat dərəcələrini müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.12. həmin Qanunun 39.3-cü maddəsində nəzərdə tutulmuş respublika və beynəlxalq miqyaslı bədən tərbiyəsi və idman tədbirlərinin Vahid təqvim planına daxil edilmiş bədən tərbiyəsi tədbirlərinin və idman yarışlarının maliyyələşdirilməsi qaydalarını və bu tədbirlərin təşkili və keçirilməsinə ayrılan xərclərin normalarını təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.13. həmin Qanunun 58.2-ci maddəsində nəzərdə tutulmuş idmançılara təqaüdlərin və digər ödənişlərin verilməsi meyarları və qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.14. həmin Qanunun 58.4-cü maddəsinin birinci cümləsində nəzərdə tutulmuş dövlət bədən tərbiyəsi-idman təşkilatlarında bədən tərbiyəsi və idman xidmətləri güzəştli şərtlərlə göstərilən bəzi kateqoriyadan olan şəxslərin siyahısını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.15. həmin Qanunun 58.4-cü maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş dövlət bədən tərbiyəsi-idman təşkilatlarında göstərilən bədən tərbiyəsi və idman xidmətlərinə güzəştlərin siyahısını və onların həcmini müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.16. öz səlahiyyətləri daxilində "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

*2.1. "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun 1.0.27-ci, 13.1-ci, 18.0-cı, 22.3-cü, 23.2.1-ci, 30.3-cü, 53-1.2-ci (hər iki halda) maddələrində, 53-1.4-cü maddəsinin ikinci cümləsində (hər iki halda) və 53-1.5-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;*[1]

*2.1-1. həmin Qanunun* 10.3-cü maddəsinin birinci cümləsində, 12.2-ci, 19.8-ci, 29.3-cü, 34.2-ci, 35.1-ci, 36.1-ci, 37.1-ci, 39.3-cü, *53-1.3-cü maddələrində, 53-1.4-cü maddəsinin birinci cümləsində, 58.2-ci maddəsində*, 58.4-cü maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir; [2]

*2.1-2. həmin Qanunun 1.0.27-ci, 53-1.2-ci (ikinci halda) və 53-1.4-cü (ikinci halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;*

*2.1-3. həmin Qanunun 53-1.5-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;*[3]

2.2. həmin Qanunun 1.0.16-cı maddəsində, 10.3-cü maddəsinin ikinci cümləsində, *12-1.1-ci,* 15.3-cü, 16.6.4-cü, 28.2.3-cü, 28.3-cü, 29.2-ci, 30.1-ci, 30.2-ci, 30.4-cü, ~~31.1-ci, 31.4-cü,~~ 34.1-ci, 36.2-ci, 37.2-ci, 38.1-ci, 38.2-ci, 38.3-cü, 38.4-cü, 39.2-ci, 41.1-ci, 41.2-ci, 41.3-cü, 44.3-cü, 45.3-cü, 45.4-cü, 47.1-ci, 48.3-cü, 49.1-ci, 51.5-ci, 56.2-ci və 61.5-ci (hər iki halda) maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi həyata keçirir;[4]

2.3. həmin Qanunun 4.0.24-cü maddəsində (hər iki halda) nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi həyata keçirir;

*2.3-1. həmin Qanunun 12-1.1-ci maddəsində qurum dedikdə Azərbaycan Milli Antidopinq Agentliyi nəzərdə tutulur.*[5]

*2.4. həmin Qanunun 13.1-ci və 23.2.1-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, tabeliyindəki tibb müəssisələrinə münasibətdə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi, digər tibb müəssisələrinə münasibətdə isə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi nəzərdə tutulur;*[6]

2.5. həmin Qanunun 17.8-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının *Elm və Təhsil* Nazirliyi həyata keçirir;

*2.6. həmin Qanunun 18.0-cı maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi nəzərdə tutulur;*[7]

2.7. həmin Qanunun 19.1-ci, 19.2-ci, 19.5-ci və 19.6-cı maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi, Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti~~, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Feldyeger Xidməti~~ öz səlahiyyətləri daxilində həyata keçirirlər;[8]

2.8. həmin Qanunun 19.7-ci maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Müdafiə Nazirliyi həyata keçirir;

2.9. həmin Qanunun 20.3-cü, 20.5-ci, 52.4-cü və 52.5-ci maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

2.10. həmin Qanunun 22.2-ci və 22.7-ci maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi həyata keçirirlər;

*2.11. həmin Qanunun 22.3-cü maddəsində "orqan (qurum)" dedikdə xüsusi kadr hazırlığı və elmi-metodiki təminatın həyata keçirilməsinə münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, tibbi təminata və həkim nəzarətinin həyata keçirilməsinə münasibətdə isə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi nəzərdə tutulur;*[9]

2.12. həmin Qanunun 25.3-cü və 25.5-ci maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Azərbaycan Respublikasının *Elm və Təhsil* Nazirliyi birlikdə həyata keçirirlər;

*2.13. həmin Qanunun 30.3-cü maddəsində "orqan (qurum)" dedikdə elmi-metodiki təminatın həyata keçirilməsinə münasibətdə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, tibbi təminata münasibətdə isə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi nəzərdə tutulur;*[10]

2.14. həmin Qanunun 38.3-cü və 39.2-ci maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının *Elm və Təhsil* Nazirliyi, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi, Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti~~, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Feldyeger Xidməti~~ həyata keçirirlər;[11]

~~*2.15. həmin Qanunun 40.5-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir;*~~ [12]

2.16. həmin Qanunun 47.2-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

2.17. həmin Qanunun 52.7-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi həyata keçirir;

2.18. həmin Qanunun 52.10-cu maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini mərkəzi və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

*2.19. həmin Qanunun 53-1.2-ci (birinci halda) və 53-1.4-cü (birinci halda) maddələrində "orqan (qurum)" dedikdə "Azərlotereya" Açıq Səhmdar Cəmiyyəti nəzərdə tutulur;*[13]

3. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə tapşırılsın ki, "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun həyata keçirilməsi üçün öz səlahiyyətləri daxilində lazımi tədbirləri görsün.

*4. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Azərbaycan Respublikasında lotereya təşkilatçısının və (və ya) idman mərc oyunlarının operatorunun məlumatı əsasında, telekommunikasiya xidmətləri vasitəsilə qumar oyunlarının təşkilinin və keçirilməsinin, qumar oyunlarında iştirak üçün biletlərin satışının təşkili və (və ya) satışının,*

*həmçinin qumar oyunlarında iştirakın, o cümlədən ölkə ərazisindən xarici lotereya təşkilatçılarının və idman mərc oyunları operatorlarının, habelə onların satıcılarının virtual mühitə çıxışlarının qarşısının alınması üçün zəruri tədbirlər görsün.*[14]

*5. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində İqtisadiyyat Nazirliyinə ~~nazirliklərinə~~ tapşırılsın ki, akkreditasiya olunmadan idman mərc oyunlarının təşkilinə və ya keçirilməsinə qarşı mübarizədə fəaliyyətin əlaqələndirilməsini təmin etsinlər, həmin oyunları qanunsuz təşkil edən və ya keçirən şəxslərin qanunla müəyyən edilmiş qaydada məsuliyyətə cəlb edilməsi və belə halların gələcəkdə baş verməməsi üçün tədbirlər görsünlər.*[15]

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 27 avqust 2009-cu il
№ 147

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 10 avqust 2015-ci il tarixli **580** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 11 avqust 2015-ci il, № 171, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 8, maddə 909)**
2. 11 iyul 2016-cı il tarixli **983** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 12 iyul 2016-cı il, № 147, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 7, maddə 1254)**
3. 25 oktyabr 2016-cı il tarixli **1086** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 26 oktyabr 2016-cı il, № 236, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, №10, maddə 1645)**
4. 15 dekabr 2017-ci il tarixli **1728** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 16 dekabr 2017-ci il, № 278, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2296)**
5. 11 iyun 2018-ci il tarixli **134** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 12 iyun 2018-ci il, № 131, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №6, maddə 1224)**
6. 6 iyul 2018-ci il tarixli **178** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 10 iyul 2018-ci il, № 150, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №7, I kitab, maddə 1464)**
7. 12 iyun 2021-cü il tarixli **1356** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 18 iyun 2021-ci il, № 125, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 6, I kitab, maddə 571)**
8. 30 dekabr 2021-cü il tarixli **1561** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 31 dekabr 2021-ci il, № 286, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 12, maddə 1426)**
9. 4 avqust 2022-ci il tarixli **1801** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 4 avqust 2022-ci il, "Xalq" qəzeti, 5 avqust 2022-ci il, № 164, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, №8, maddə 861)**
10. 03 mart 2023-cü il tarixli **2047** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 03 mart 2023-cü il, "Xalq" qəzeti, 04 mart 2023-cü il, № 49, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 3, maddə 342)**
11. 18 iyul 2023-cü il tarixli **2227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 18 iyul 2023-cü il, "Xalq" qəzeti, 19 iyul 2023-cü il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 7, maddə 952)**

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 12 iyun 2021-cü il tarixli **1356** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 18 iyun 2021-ci il, № 125, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 6, I kitab, maddə 571)** ilə 2.1-ci bənd 2.1-1-ci bənd hesab edilmişdir və yeni məzmunda 2.1-ci bənd əlavə edilmişdir.

30 dekabr 2021-cü il tarixli **1561** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 31 dekabr 2021-ci il, № 286, Azərbaycan Respublikasının Qanunvericilik**

**Toplusu, 2021-ci il, № 12, maddə 1426)** ilə 2.1-ci bəndə "**Qanununun**" sözündən sonra "**1.0.27-ci,**" sözləri əlavə edilmişdir və həmin bənddə "**maddələrində**" sözü "**, 53-1.2-ci (hər iki halda) maddələrində, 53-1.4-cü maddəsinin ikinci cümləsində (hər iki halda) və 53-1.5-ci maddəsində**" sözləri ilə əvəz edilmişdir.

[2] 12 iyun 2021-cü il tarixli **1356** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 18 iyun 2021-ci il, № 125, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 6, I kitab, maddə 571)** ilə 2.1-1-ci bənddə "**Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun**" sözləri "**həmin Qanunun**" sözləri ilə əvəz edilmişdir.

30 dekabr 2021-cü il tarixli **1561** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 31 dekabr 2021-ci il, № 286, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 12, maddə 1426)** ilə 2.1-1-ci bənddə "**58.2-ci maddələrində**" sözləri "**53-1.3-cü maddələrində, 53-1.4-cü maddəsinin birinci cümləsində, 58.2-ci maddəsində**" sözləri ilə əvəz edilmişdir.

[3] 30 dekabr 2021-cü il tarixli **1561** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 31 dekabr 2021-ci il, № 286, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 12, maddə 1426)** ilə yeni məzmunda 2.1-2-ci və 2.1-3-cü bəndlər əlavə edilmişdir.

[4] 15 dekabr 2017-ci il tarixli **1728** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 16 dekabr 2017-ci il, № 278, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2296)** ilə 2.2-ci bənddən "**31.1-ci, 31.4-cü,**" sözləri çıxarılmışdır.

6 iyul 2018-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 10 iyul 2018-ci il, № 150)** ilə 2.2-ci bənddə "**10.3-cü maddəsinin ikinci cümləsində,**" sözlərindən sonra "**12-1.1-ci,**" sözləri əlavə edilmişdir.

[5] 6 iyul 2018-ci il tarixli **178** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 10 iyul 2018-ci il, № 150, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №7, I kitab, maddə 1464)** ilə 2.3-1-ci bənd əlavə edilmişdir.

[6] 12 iyun 2021-cü il tarixli **1356** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 18 iyun 2021-ci il, № 125, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 6, I kitab, maddə 571)** ilə 2.4-cü bənd yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~2.4. həmin Qanunun 13.1-ci və 23.2.1-ci maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi həyata keçirirlər;~~

18 iyul 2023-cü il tarixli **2227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 18 iyul 2023-cü il, "Xalq" qəzeti, 19 iyul 2023-cü il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 7, maddə 952)** ilə 2.4-cü bənddə "**Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin tabeliyindəki tibb müəssisələrinə münasibətdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi**" sözləri "**tabeliyindəki tibb müəssisələrinə münasibətdə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi**" sözləri ilə əvəz edilmişdir.

[7] 12 iyun 2021-cü il tarixli **1356** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 18 iyun 2021-ci il, № 125, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 6, I kitab, maddə 571)** ilə 2.6-cı bənd yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~2.6. həmin Qanunun 18.0-cı maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirir;~~

18 iyul 2023-cü il tarixli **2227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 18 iyul 2023-cü il, "Xalq" qəzeti,**

**19 iyul 2023-cü il, № 149, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 7, maddə 952)** ilə 2.6-cı, 2.11-ci və 2.13-cü bəndlərdə "**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi**" sözləri "**Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi**" sözləri ilə əvəz edilmişdir.

[8] 11 iyun 2018-ci il tarixli **134** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 12 iyun 2018-ci il, № 131, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №6, maddə 1224)** ilə 2.7-ci və 2.14-cü bəndlərindən **", Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Feldyeger Xidməti**" sözləri çıxarılmışdır.

[9] 12 iyun 2021-cü il tarixli **1356** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 18 iyun 2021-ci il, № 125, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 6, I kitab, maddə 571)** ilə 2.11-ci bənd yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~2.11. həmin Qanunun 22.3-cü maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirirlər;~~

[10] 12 iyun 2021-cü il tarixli **1356** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 18 iyun 2021-ci il, № 125, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 6, I kitab, maddə 571)** ilə 2.13-cü bənd yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~2.13. həmin Qanunun 30.3-cü maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirirlər;~~

[11] 03 mart 2023-cü il tarixli **2047** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 03 mart 2023-cü il, "Xalq" qəzeti, 04 mart 2023-cü il, № 49, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 3, maddə 342)** ilə 2.4-cü, 2.5-ci, 2.12-ci və 2.14-cü bəndlərində "**Təhsil**" sözü "**Elm və Təhsil**" sözləri ilə əvəz edilmişdir.

[12] 10 avqust 2015-ci il tarixli **580** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 11 avqust 2015-ci il, № 171, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 8, maddə 908)** ilə 2.15-ci bəndi ləğv edilmişdir.

[13] 11 iyul 2016-cı il tarixli **983** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 12 iyul 2016-cı il, № 147, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 7, maddə 1254)** ilə 2.18-ci bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 2.19-cu bənd əlavə edilmişdir.

30 dekabr 2021-cü il tarixli **1561** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 31 dekabr 2021-ci il, № 286, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 12, maddə 1426)** ilə 2.19-cu bənd yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

*~~2.19. həmin Qanunun 53-1.5-ci və 53-1.7-ci maddələrində nəzərdə tutulmuş maliyyə bazarına nəzarət orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası həyata keçirir.~~*

[14] 30 dekabr 2021-cü il tarixli **1561** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 31 dekabr 2021-ci il, № 286, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 12, maddə 1426)** ilə 4-cü hissə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

*~~4. Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasında idman mərc oyunlarının operatorunun məlumatı əsasında, Azərbaycan Respublikasında idman~~*

~~mərc oyunlarının operatoru ilə müqavilə bağlamadan fəaliyyət göstərən idman mərc oyunlarının həm yerli, həm də xarici virtual satıcılarının internet portallarının və saytlarının ölkə ərazisində fəaliyyətinin qarşısının alınması üçün zəruri tədbirlər görsün.~~

[15] 25 oktyabr 2016-cı il tarixli **1086** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 26 oktyabr 2016-cı il, № 236, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, №10, maddə 1645)** ilə yeni məzmunda 4-cü və 5-ci hissələr əlavə edilmişdir.

30 dekabr 2021-cü il tarixli **1561** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 31 dekabr 2021-ci il, № 286, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 12, maddə 1426)** ilə 5-ci hissədə "**və Vergilər**" sözləri "**Nazirliyinə və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində İqtisadiyyat Nazirliyinə**" sözləri ilə əvəz edilmişdir.

4 avqust 2022-ci il tarixli **1801** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 4 avqust 2022-ci il, "Xalq" qəzeti, 5 avqust 2022-ci il, № 164, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, №8, maddə 861)** ilə 5-ci hissədən "**nazirliklərinə**" sözü çıxarılmışdır.